## 18 avqust Sərhəd Qoşunlarının yaranması günüdür!

# Vətən sərhəddən başlanır...






Ta qədim zamanlardan sərhədçi peşəsi şərəfli peşə sayılmışdır. Relyefindən, iqlimindən asılı olmayaraq doğma Vətənimizin hər bir guşəsi bizim üçün müqəddəslik rəmzidir. Bu müqəddəsliyi qoruyan sərhədçilər isə sözün əsl mənasında yurdun görən gözləri, Vətənin pərvanələridir. Bu günün sərhədçisi hərbi anda sədaqətini həm quruda, həm dənizdə, həm də səmada Vətənimizin keşiyində mərdliklə, ayıqsayıq durmağı ilə sübut edir. Nə gecələrin zülmət qaranlığı, nə də əlverişsiz hava şəraiti sərhədçilərimizə mane ola bilmir. Əldə silah gecə-gündüz dövlət sərhəddini göz bəbəyi kimi qoruyan Azərbaycan sərhədçiləri Vətən uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Sərhəd zastafalarında hər an silahlı toqquşma ilə nəticələnə biləcək gözlənilməz hadisələr baş verə bilər. Ona görə də peşəkar sərhədçilər üçün döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlıq çox mühüm əhəmiyyət kəsb edir. Təbii ki, işğalçı Ermənistanla dövlət sərhədində keşik çəkməyin digər həmsərhəd ölkələrlə sərhədlərin mühafizəsindən bir çox fərqli cəhətləri və çətinlikləri var. Çünki bu istiqamət həm sərhəd, həm də səngərdir. Digər tərəfdən, bu istiqamətdə Vətən anlayışı təkcə sərhəddə bitmir. Azərbaycan qərbdən - qədim dədə-baba torpaqlarımızda dövlət qurmuş Ermənistanla 1007 kilometr, şimali-qərbdən Gürcüstanla 480 kilometr, şimaldan Rusiya ilə 390 kilometr, cənubdan İranla 756 kilometr, Türkiyə ilə 13 kilometr həmsərhəddir. Vətənin mənəvi sərhədləri isə ucsuz-bucaqsız, sərhədsizdir...

Hər bir suveren dövlətin tarixi həm də onun sərhədlərinin tarixidir. Bu tarix yalnız Azərbaycan sərhədçiləri üçün deyil, xalqımız və qədim ənənələrə malik dövlətçilik tariximiz üçün də əlamətdardır. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 18 avqust 1919-cu ildə ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Qanuna əsasən, təsis edilən Hərbi Nazirliyin tərkibində Azərbaycanın bir sıra güc strukturları, o cümlədən ilk sərhəd qoşunları dəstəsi yaradılıb.

70 illik sovet hakimiyyəti dövründə Azərbaycanın yalnız cənub sərhədləri qorunurdu. 1991 - ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Lakin ilk illərində ölkəmizin daxilindəki qeyri-sabitlik digər sahələr kimi, dövlət sərhədlərimizin mühafizəsi işinin təşkilinə də mənfi təsir etmiş, normal sərhəd strukturlarının yaradılması, Sərhəd Qoşunlarının formalaşması prosesi, demək olar ki, getməmişdir.

Sərhəd mühafizəsinin əhəmiyyətini və incəliklərini çox yaxşı bilən ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra bu sahənin müasir tələblər səviyyəsinə qaldırılması üçün müvafiq qərarlar vermiş, sərhədlərin mühafizəsində müasir texniki vasitələrin tətbiqi, dəniz sərhədlərinin mühafizəsi sisteminin və sərhəd aviasiyasının yaradılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün zəruri baza yaradılmışdır.

20 il əvvəl - 2000-ci il 16 avqust tarixli Fərmanı ilə 18 avqust Azərbaycanda "Sərhəd Qoşunları Günü" kimi təsis edilib. Bu qərar tarixi varislik prinsipini və milli sərhədçilik yaddaşını bərpa etmişdir. 2002-ci il iyul ayının 31-dən Sərhəd qoşunları müstəqil qurum - Dövlət Sərhəd Xidməti kimi fəaliyyətə başlayıb. Milli sərhəd mühafizəsi ənənələrini yaşadan və inkişaf etdirən Dövlət Sərhəd Xidməti və onun ayrılmaz hissəsi olan Sərhəd Qoşunları öz keçmişinə ehtiramla yanaşır.

Müasir dövrdə sərhəd mühafizəsi əslində, həm də bütün cəmiyyətin işidir. Vətənini sevən onun sərhədini də, sərhədçisini də sevir.

Bu gün adları müstəqil ölkəmizin sərhəd mühafizəsi tarixinə əbədi həkk olunan onlarla şəhid sərhədçilərimiz var. Canlarını Vətən uğrunda fəda edən igidlər bizə qəhrəmanların təkcə sərhədçilərdən bəhs edən filmlərdə, kitablarda olmadığını sübut etdilər. Sərhədçi Milli Qəhrəmanlar polkovnik-leytenant İntiqam Atakişiyev, baş leytenant Eldar Məmmədov, baş leytenant Əmiraslan Əliyev, gizir Faiq Cəfərov, kursant Bəhruz Mansurov, əsgər Eltun İsgəndərov, "Azərbaycan Bayrağı" ordenli Qorxmaz Həşimov, "İgidliyə görə" medalı ilə təltif olunmuş əsgər Ramin Ləléyev, Elçin Qasımov, gizir Qulam Ələkbərov, çavuş Natiq Xəlilov sərhədçi şərəfini daha da ucaldıblar. Azərbaycanın Milli Qəhrəmanlarının və dövlət sərhədinin mühafizəsi zamanı şəhid olmuş sərhədçilərin adları xidmət etdikləri sərhəd zastavalarına və digər sərhəd bölmələrinə verilir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə yaradılan Dövlət Sərhəd Xidmətinin Akademiyasında və DSX-nin Xüsusi Məktəbində savadlı, intizamlı, məsuliyyətli, sərhədlərin mühafizəsi işini peşəkarlıqla təşkil edə bilən yeni milli sərhədçi kadrlar hazırlanır. Bununla yanaşı, Azərbaycan sərhədçiləri xarici ölkələrdə kurslara, treninqlərə göndərilirlər ki, bu da onların peşəkarlıq səviyyəsinin artmasına kömək edir. Eyni zamanda, xarici dövlətlərin sərhədçiləri Azərbaycana gəlir, ölkəmizin sərhəd mühafizəsinin qazandığı təcrübədən faydalanırlar.

Ölkəmizin MDB regionunda telekommunikasiya peykinə sahib olan 3 ölkədən biri, Qafqaz regionunda isə yeganə dövlət olması, kosmik sənayenin yaradılması və milli peyklərimizin orbitə çıxarılması bir çox digər sahələrlə yanaşı, dövlət sərhədlərinin mühafizəsi istiqamətində də yeni imkanlar yaratmışdır.

Təkcə Azərbaycan üçün yox, bütün bölgə üçün çox mühüm iqtisadi və siyasi əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Xəzər dənizində neft-qaz ixrac boru kəmərlərinin və neft platformalarının təhlükəsizliyinin təmin olunması sahəsində də Dövlət Sərhəd Xidmətinin üzərinə mühüm vəzifələr düşür.

DSX - nin ölkə ictimaiyyəti ilə sıx əlaqələri ardıcıl maraqlı və yaddaqalan tədbirlərlə həyata keçirilir. Görülən tədbirlər arasında müxtəlif yaradıcılıq müsabiqələrinin keçirilməsi xüsusi yer tutur. Azərbaycan sərhəd mühafizəsinin ildönümü münasibətilə mahnı, bədii ədəbiyyat, dekorativ tətbiqi sənət, təsviri sənət, qəzet məqaləsi və inşa yazısı üzrə 6 nominasiyada müsabiqələr elan edilir. Müsabiqədə ölkəmizin həvəskar rəssamları, yazıçı və şairləri, jurnalistləri, tələbələri və sərhədyanı rayonların ümumtəhsil məktəblərinin şagirdləri iştirak edirlər. Azərbaycan Sərhəd Mühafizəsinin 101-ci ildönümünə həsr olunmuş "Müqəddəs sərhədlərimizin keşiyində" müsabiqəsinin qaliblərini Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Bəstəkarlar İttifaqının və Mətbuat Şurasının nümayəndələrindən ibarət komissiya müəyyən edir. Bu sətirlərin müəllifi də Sərhəd Mühafizəsinin 99-cu və 100-cü ildönümünə həsr olunmuş yaradıcılıq müsabiqəsinin qaliblərindən biri olub.

Sonda "İki sahil" qəzetinin kollektivi adından Vətənimizin mühüm atributlarından sayılan dövlət sərhədlərimizi qoruyan əsgər və zabit heyətinə peşə bayramınız mübarək, dilinizdən Vətən andı, ürəyinizdən Vətən sevgisi əskik olmasın deyirik.

✍ **Nurəddin Muğanlı,**
***"İki sahil"***